*Muxtarova Sevinc.Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" povestindəki əsas surətlərin səciyyəsi // Elmi əsərlər,2020,2(11),iyul-dekabr,s.53-58.*

UOT 821.512.162

**Muxtarova Sevinc,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
mukhtarovasevinc@mail.ru

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN "XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI" POVESTİNDƏKİ ƏSAS SURƏTLƏRİN SƏCİYYƏSİ

**Açar sözlər:** *Haqverdiyev, povest, xortdan, fırıldaqçı din xadimləri, xəsislik*

Əbdürrəhim bəy Haqverdiyev XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ictimai-ədəbi və mədəni fikir tarixində özgün yeri olan şəxsiyyətlərdəndir. O, həm dramaturgiya və bədii nəsrimizi, həm də satirik publisistikamızı yeni və orijinal mövzularla yanaşı, özünəməxsus ideya-estetik, sujet və kompozisiya xüsusiyyətlərinə, üslub və ifadə tərzinə malik olan əsərlərlə zənginləşdirmişdir. Bununla da XX əsrin ilk onilliyində milli ictimai-bədii fikrimizin əlvanlığını və sürətli inkişafını təmin edən əsas şəxsiyyətlərdən biri kimi parlamışdır.

Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan tarixinin mühüm bir dövrünü öz əsərlərində əks etdirmişdir. Onun ədəbi yaradıcılığının inkişaf yolu xalq həyatı ilə, cəmiyyətin keçdiyi ziddiyyətli yollarla bağlı olmuşdur. İlk əsərini çıxmaq şərtilə müəllifin qalan əsərlərində yazıçı get-gedə həyat sahəsində öz mövqeyini itirən, tənəzzülə uğrayan mülkədarlığın süqutunu təsvir etməklə bərabər, onun təbiətinə xas olan tipik xüsusiyyətləri: yeni qüvvələrə qarşı çıxdığını, istismarçılığını, əxlaq düşkünlüyünü və əməkçi insana mənfi münasibətini açıb göstərmişdir. Yazıçı bu dövrdə mülkədarlığın çürümə prosesi keçirdiyini, cəmiyyətin ciddi islahatlara möhtac olduğunu dərk edən, kəndlilərin hüquqlarını müdafiəyə qalxan surətlər yaratmışdır. [2, s.3]

XIX əsrin sonu XX əsrin əvvəlləri Qərbdə feodal-patriarxal münasibətlər süqut etdiyi halda, Azərbaycanda bu cür münasibətlər hələ də qalmaqda idi. Oxuyub-yazmağı bacarmayan avam insanlar içərisindən çıxan bəzi dələduz, ayıq şəxslər həmin insanların bu vəziyyətindən istifadə edib, min bir fırıldaqla varlanmaq ehtirasına tutulurdular. Ə. Haqverdiyev dövrün bir ziyalı yazıçısı kimi həmin fırıldaqçıları, dələduzları uyğun bir məkana – cəhənnəmə toplayaraq "mənfi tiplər cəmiyyəti" ni yaratdı və açıq-aşkarcasına onları ifşa etməyə başladı. Bu baxımdan yazıçı klassik irsimizə "Xortdanın cəhənnəm məktubları" povestini bəxş edib. Bu povestdə əsas ideya xalqın tərəqqisinə mane olan ictimai təbəqələrin, habelə o dövrdə Azərbaycandakı mühafizəkar qüvvələri tənqid etməkdir.

Povestin mövzusu "mənfi tiplər cəmiyyəti" ilə əlaqədardır. Povestdə həm bu dünyanın, həm də cəhənnəmin təsvirində əsas mövzu diqqəti cəlb edir. Bunlardan birincisi, fırıldaqçı din xadimlərinin ifşasıdır. Bu mövzu müqəddimə hissəsindən başlayaraq bütün əsər boyu davam edir. Lakin ardıcıl bir xətlə inkişaf etdirilmir, əsərdəki başqa mövzularla növbələnir və ya müxtəlif problem, mətləblərlə əlaqələndirilir. İkinci mövzu burjua-mülkədar cəmiyyətinin ifşası məsələsidir. Ədib burjua-mülkədar cəmiyyətinin geniş təhlilini və tənqidini vermir. "Bu mövzu ayrı-ayrı dövlət nümayəndələrinin satirik portretlərində və sözgəlişi toxunulan bəzi siyasi-ictimai mətləblərdə, hadisələrdə bədii həllini tapmışdır" [6, s.114].

Ə.Haqverdiyevin nəsrindəki surətlər ilk növbədə Qarabağda gördüyü, tanıdığı insanlar əsasında yaradılmışdı. Ədib həyatda gördüyü, müşahidə etdiyi insanlardan öz əsərlərində

qələmə aldığı mövzulara uyğun olaraq istifadə edib canlı, bədii xarakterlər yaratmışdır.

Ədibin qeyd etdiyi kimi "Xortdanın cəhənnəm məktubları"nda "mənfi tiplər" cəmiyyəti olan cəhənnəmdən danışılır. Burada həm müsbət, həm də mənfi surətlər var. Ancaq mənfi surətlər sayca müsbət surətlərdən çoxdur. Povestin baş qəhrəmanı olan Xortdan nə mənfi, nə də müsbət surətdir. "Xortdan – qorxunc görünüşlü mifik vücuddur" [5,s.140].
Ə. Haqverdiyevin niyə məhz "Xortdan" surətini seçməsi də təsadüfi deyildi. Bu surətin yaradılmasının özündə də o zamankı müsəlman zehniyyətinə, avamlığa, mövhumata dərin kinayəni görmək çətin deyildir. Ə. Haqverdiyev də camaat içərisindəki bu cəhalət əlamətini Xortdan surətini yaratmaqla lağa qoymuşdu, gülüş hədəfi etmişdi. "Xortdan folklor və xalq əfsanələrinə görə qaniçən məxluq, tez-tez ölü olandır. [1,s.140].

"Xortdanın cəhənnəm məktubları"nda satirik portretlərə rast gəlirik. Satirik portretlərin demək olar ki, hamısında ədibin surətə olan mənfi münasibəti, hətta kinayəsi çox aydın və qabarıq şəkildə özünü biruzə verir. Əbdürrəhim bəy Haqverdiyev obrazın təsvirində portret detallarından istifadə etməyi çox sevir. Belə hallarda surətin zahiri görkəminin mükəmməl təsviri verilmir. Yalnız ən zəruri, səciyyəvi əlamətlərindən bəzisi nəzərə çatdırılır. Bu üsula, əsasən, ikinci, üçüncü dərəcəli surətlərin təsvirində təsadüf olunur. Məsələn: "Meydanda bir nəfər dəllək mənim diqqətimi cəlb elədi. Bu adamın nə başında, nə də sifətində dərman üçün bir tük yox idi. Boyu azından bir sajen". Xortdanın Ağdam bazarında rast gəldiyi usta Qulunun tamam tüksüz sifəti və bir sajenlik boyu oxucuda gülüş doğurur. Bu dəlləyin qarşısına çıxdığı kəndlilərin başını zorla qırxmaq adəti də nəql edilirkən o daha gülünc görünür. Beləliklə, kiçik bir parçada surətin gülünc xarakteri və görünüşü haqqında çox yığcam və dəqiq təsəvvür yaranır.

Povestdə cəhənnəmin təsviri Xortdanın dili ilə nəql olunur. Xalq düşüncəsinə görə Xortdan gecələr dirilib qəbirdən çıxan, insanlara yamanlıq edən varlıqdır. [3, s. 282].
Yazıçının təsvirində qəhrəman əslində xarici görkəmiylə, davranışıyla dövrün ziyalısı simasına salınmış Xortdandır. İnsani və qeyri-insani keyfiyyətlər qəhrəmanın obrazında incəliklə birləşdirilir [5, s.26-27] .

Əsərdə mənfi surətlər çox olsa da, müsbət surətlər də vardır. Müsbət surətlər, adətən, müəllifin müsbət ideallarının ifadəçisi olub, onun həyat və cəmiyyət haqqındakı arzu və fikirlərini təcəssüm etdirir. Bu surətlərdə müəllifin dünyagörüşünün, dövrə, insanlara şəxsi münasibətinin müəyyən əlamətlərini görmək, izləmək mümkündür. Qeyd etmək lazımdır ki, Haqverdiyevin nəsrindəki müsbət surətlərin əksəriyyəti daha çox fərdi cəhətləri, şəxsi ləyaqətləri ilə diqqəti cəlb edir. Haqverdiyevin müsbət surətləri ən çox zəhmətkeş xalq içərisindən çıxmış surətlər olur. Bu surətlərdən Fərmanla Gövhərtacın adlarını çəkmək olar. Dastanda olduğu kimi hekayədə də sevgililərin vüsalına qarşı çıxışlar olur.

Ədib bütün eybəcərlikləri, dövrünün qanunsuzluğunu mənfi tiplərin simasında təsvir edir. Olduqca satirik surətlərlə bol olan povest Xortdanın dili ilə ifşa olunur. Mənfi tiplərin də özlərini də bu cür qruplaşdırmaq olar:

1) Fırıldaqçı din xadimləri, tacirlər.
2) Yerli dövlət məmurları (xan, bəy və s.).
3) Çar məmurları.

Ədib "Xortdanın cəhənnəm məktubları"nda tacirlərin və ruhanilərin heç birinin ayrı-ayrılıqda müfəssəl portretini yaratmamışdır. Bununla belə əsərdə tacirlərin ən səciyyəvi cəhətləri dəqiq açılmış və onlar çox mükəmməl rüsvay edilmişdir. Ədib Bərdə və Ağdam bazarlarının təsvirini verən zaman buradakı tacirlərdən, hacıların fırıldaqçılığına, acgöz-

lüyünə, dələduzluğuna aid kinayəli işarələr vermişdir. Tədricən bu ümumi kinayələr konkretləşir və hacı Mehdiqulunun müamiləçiliyindən, Məşədi Sünbənin fırıldaqçılığından, "imarətlər", gəmiləri, karvansarası olan Hacının ifrat xəsisliyindən özünün zirvə nöqtəsinə çatır. Ədib Hacı Mehdiqulunun digər hiyleyi-şəriyyəsindən danışanda yazır: "Tutalım, bir nəfər bəy gəlib hacıdan beş yüz manat qərz istəyir, hacı da bəyi mötəbər bilib razı olur. Gərək altı ayını vədəsinə altı yüz əlli veksel yazılsın. Hacı əl qatıb qəfəsdən bir ədəd bir abbasılıq yaylıq götürüb deyir: – Bəy, siz bu yaylığı məndən yüz əlli manata almağa razısınızmı ki, pulunu da altı aydan sonra verəsiniz? Bəy razı olur, veksel altı yüz əlli manata yazılır. Beş yüz manat bəyin borcu və yüz manat da altı aydan sonra verəsiniz!" (4,s.35). Digər din xadimi Ağ Molla yenə pul qazanmaqdan ötrü islam dininin qanunlarına zidd gedir. Çünki islam dinində o biri dünyaya gedib qayıtmaq yoxdur. Əgər bir insan öz istəyi ilə belə etsə, cəhənnəmi gəzirsə, bunun müqabilində müəyyən məvacib alırsa, əlbəttə, bu böyük cinayətdir. Digər din xadimi Məşədi Sünbədir. O, gördüyü əməllərində heç bir günah iş görmür. Ancaq Məşədi hamıya pul verərdi, hamıya kömək edərdi, hamının əlindən tutardı. Əlbəttə, yaxşı insan olduğuna görə yox, sələmçi olduğuna görə. Ona görə də cəhənnəmdə onun iki ayaqlarını sifətinə bağlayıb bir aşağı-yuxarı sürüyürlər. Başqa bir Hacını da hədər yerə cəhənnəmə salmayıblar. Çünki Hacı kəndlərdən on girvənkəlik yağı yeddi manata yığırmış. Amma hamının Hacıya inamı vardı. Çünki bir dəfə Hacı alıcının beş manatını əskik qaytardığına görə onun pulunu özünə geri qaytarmışdı. Ədib Hacı obrazının daxili aləmini həm bədii psixoloji portretlə, həm də monoloqu və dialoqlarla açıb göstərir. Ədib onun portretini yaradan zaman xarici görkəminə üstünlük vermir. Birbaşa onun xarakterinə keçir: "Hacı Bakıda bir məşhur kişi idi. İstər dövlətdə, istər xəsislikdə neçə ədəd böyük imarətləri, gəmiləri, karvansaraları var idi. Bununla belə, gündə iki abbasıdan artıq xərc etməzdi. Yol uzaq olanda faytona minməzdi, çünki beş şahı fayton pulu xərc hesab edərdi. Həmişə qonyaka minərdi. Haraya istəsəydi, bircə şahı manata aparardılar" [5, s.85].

Xortdan Odabaşı ilə cəhənnəmi süpürən Hacı Mirzə Əhməd ağa ilə rastlaşır. Hacı Mirzə Əhməd ağa ilə bağlı əhvalat "Odabaşının hekayəsi" adlanır. Bu hekayədə öz mənfəətlərini fikirləşən din xadimlərinin dövrün günahsız, bir-birini böyük məhəbbətlə sevən gənclərinin bədbəxt taleyinə səbəb olmasından danışılır. Qeyd etmək lazımdır ki, "Odabaşının hekayəsi"nin mövzusu mənəvi eşq və maddi eşq qarşıdurmasını əhatə edir. Əsərdə ideyanın bədii həllinə yazıçı orijinal bir şəkildə, süjetin Gövhərtac ətrafında qurulmasıyla həyata gerçəkləşdirir. Gövhərtac pak və müqəddəs eşqin rəmzidir. Ətrafındakılar isə Gövhərtacın məhəbbətinə maddiyyat baxımından yanaşırdılar. Hacı Kamyab, Gövhərtacın anası, Hacı Mirzə Əhməd ağa insani münasibətlərə varlanmaq ehtirası ilə yanaşan obrazlardır. Hekayənin əvvəlində Hacı Kamyabın xarakteri bədii təhkiyədə aydınlaşır: "İbrahimin Hacı Kamyab adlı bir qardaşı var idi. Hacı Kamyab şəhərdə ən zəngin tacir sayılırdı. Onun ticarəti nəinki öz məmləkətində, hətta əcnəbi ölkələrdə də işləyirdi. İstanbulda, Bakıda, Tiflisdə, Batumda onun amilləri var idi. Rusiyanın hər şəhərində onun malı işlərdi. İldə bir dəfə Hacı özü səyahətə çıxıb, təftiş və bazarların tələbatına bələd olmaq üçün Rusiyanı, Türkiyəni gəzib qayıdardı... Hacı Kamyabın qapısı hər gələn üçün açıq idi. Hər il məhərrəm ayının birindən onunadək imam ehsanı verərdi. Şəhərin cəmi tüccarı, üləma və soldatı onun ehsanına cəm olurdular. Aşura günündən başlamış imamın qırxınadək təkyə saxlardı. Təkyələrində çay və qəndab sel kimi axardı. Bununla belə, Hacı Kamyab qardaşı İbrahimin əlini tutmazdı və deyərdi: "İkimiz də bir atanın, bir ananın uşaqlarıyıq, atamız ikimizə də bərabər irs qoyub gedib. Mən çalışıb qazanan kimi o da qazansın" [4,s.90-91].

Ədibin Hacı Mirzə Əhməd ağanın ilk portret təsvirləri, əvvəlcə, oxucuda xoş təəssürat oyadır. Oxucuya elə gəlir ki, nəhayət ki, cəhənnəmdəki hacıların içərisində bir etibarlısına da rast gəlindi: "Bir polis nəfərinin, bir xanın, bir hakimin Hacı Mirzə Əhməd ağanın evindən adam çıxartmağa hünəri yox idi. Dəstə ki, girdi, qurtardı. Hacı Mirzə Əhməd ağanın xanimanı qədim zamandan müqəddəs bir məkan hesab olunurdu. Hacının atası və babası, həmçinin, nüfuz sahibi müctəhidlərdən olublar... Cəmi əhali Hacı Mirzə Əhməd ağanı müqəddəs hesab edirdi. Hətta belə danışardı ki, guya ağa çətin məsələlərin həlli üçün gecə yarısı bir xəlvət otağa çəkilib, orada peyğəmbərlə söhbət edib fitva alır. Ağanın xüsusi məvacibxor agentləri hər yeri dolanıb, belə xəbərləri buraxırdılar və avam xalq da bu agentlərin sözlərinə bavər edirdilər" [4,s.105].

Ə. Haqverdiyev yerli dövlət məmurlarının hamısını mənfi planda vermişdi. Bu dövlət məmurları uçtel, Dəsturov, həkimbaşı Mirzə Mehdi, vəkillər, vətən xainlərini təşkil edir. Haqverdiyev uçteli, yəni müəllimi oxucuya təqdim etməzdən əvvəl onun xarici portretini yaradaraq yazır: "Bir nəfər arıq, uzunboğaz, başı şapkalı, əynində bozarmış sertuq, təxminən qırx sinində şəxs, qabağında bir stəkan dişləmə çay. Tez-tez yumruğunu yerə döyüb burnunu çəkərək, onunla yanaşı oturmuş tənumənd, yoğun qarasaqqalı bir hampa kəndli ilə mübahisə eləyirdi" [4, s.29].

Haqverdiyevin mənfi tiplər silsiləsinə, zəhmətkeş xalqı elmdən uzaqlaşdıran "ziyalı" və "oxumuşlar" da daxildir. Mirzə Səttar – "uçtel" işdən çıxarıldığına görə səbəbi hampada görür. Ancaq əslində hampanın heç bir günahı yox idi. Çünki hampa Mirzə Səttarın dərs gətirməyə getmək bəhanəsi ilə kef eləməyə getdiyini bilmirdi. Ədib yaxşı bilirdi ki, maarifin olamaması zəhmətkeş xalqı uzun müddət fırıldaqçı din "məddahlarının" ağır pəncəsi altında saxlamış, göz açmağa qoymamış, qaranlıqdan işıqlı aləmə çıxmasının qarşısını almışdır.

"Xortdanın cəhənnəm məktubları"nda başlıca tənqid hədəflərindən biri qondarma ərizələrlə çar hökumətindən ona-buna bəylik rütbəsi almaqla varlanan Dəsturovdur. O, Şuşada yaşayan konkret tarixi şəxsiyyətdir. [4, s.82].

Ədib Dəsturovu təqdim edən zaman təzadlı kinayəli gülüş yaradır: "Əgər mənə desəydilər ki, Hacı Molla Baba saqqalını qırxdırıbdır, inanardım; Bakı qoçuları and içiblər ki, adam öldürməsinlər, inanardım; cəmi Yaponiya əhalisi dönüb müsəlman olubdur, inanardım; yer üzündə bir rüşvətxor çinovnik yoxdur, inanardım; Purişkeviç bolşevik olub, inanardım; amma min nəfər əhli-iman and içsə idi ki, Dəsturovu cəhənnəmə göndərəcəklər, inanmazdım. Gözümlə görəndən sonra məndə daha şəkk yeri qalmadı" [4,s.80].

Guya ancaq Dəsturovun ictimai həyatda mötəbər adam kimi seçilib sayılmasından danışan xortdan, əslində çox mətləblərə toxunur, çoxlarının eybini açır, həm də söhbəti mənalı gülüş doğuran, maraqlı qarşılaşdırma yolu ilə ədəbi manerası ilə aparır. [4, s.80].

Xortdan Dəsturovun bəd əməllərindən agahdır. Çünki cəhənnəmdə xəsis tacir olan Hacıya rast gələndə Hacı ondan ona az əziyyət verilməsini xahiş edir. Xortdan cavabında deyir: "Ancaq sənə bir tədbir tökə bilərəm. Bu yaxında Dəsturov adında bir kişi var. Ərizə yazmaqda çox qoçaqdır. Ona deginən Allaha bir ərizə yazsın. Bəlkə, bir fayda verdi" [4, s.88].

Povestin sonunda Rus qoşunları və onların başında duran çar II Nikolay cəhənnəmə daxil olanda cəhənnəmdəkilərin bəziləri onların gəlişinə razı olsa da, bəziləri narazı qalır. Onların yolunu gözləyənlər isə bəylər, axundlar və sair millətlərin ruhaniləri, əyanlarıdır ki, vaxtilə real dünyada Rus qoşunlarına sədaqətlə xidmət edirdilər. Ancaq Rus qoşunları, kazaklar və çar II Nikolay cəhənnəmin əsərdə adı çəkilən sakinlərindən ən qorxunc və dəhşətlisidirlər. Hətta Xortdan belə onların gəlməyini eşidəndə oradan qaçmaq istəyir. Çünki Xortdanın onlara qədər qarşılaşdığı insanların heç biri ona zərər verməmişdir [4, s.65].

Ə.Haqverdiyev dünya ədəbiyyatının ən görkəmli yazıçıları ilə müqayisə oluna biləcək dərəcədə portretlər yaratmışdır. O, obrazın təsvirində xarakterin portret detallarından istifadə etməyi çox sevirdi. Belə hallarda o, çalışırdı ki, obrazın zahiri görkəminin təsvirinə az yer verilsin, yalnız ən zəruri, səciyyəvi əlamətlərindən bəzisi nəzərə çatdırılır. Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı hər bir gənc üçün tərbiyəvi əhəmiyyətə malikdir. O həmişə bir klassik kimi bizə əziz və canlıdır.

## Ədəbiyyat:


1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, II c., Bakı: Şərq-Qərb, 2006, 792 s.
2. Azərbaycan respublikasi mədəniyyət və turizm nazirliyi. F. Köçərli adina respublika uşaq kitabxanasi elmi metodika şöbəsi ( Əbdürrəhim bəy Haqverdiyevin 140 illiyinə həsr olunmuş metodik vəsait) Unudulmaz sənətkar - Ə. Haqverdiyev. Bakı. - 2010, 19 s.
3. Bəydili C. Türk mifoloji sözlüyü, Bakı: Elm, 2003, 418 s.
4. Haqverdiyev Ə. Seçilmiş əsərləri. 2 cilddə, II c., Bakı: Lider, 2005, 501 s. 32.
5. Məmmədov K. Ə. Haqverdiyev. Bakı: Uşaq Gəncnəşr, 1955, 193 s. 53.
6. Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası. Bakı: Yazıçı, 1988, 326 s. 70.


***Мухтарова Севиндж***

## ХАРАКТЕРИСТИКА ОСНОВНЫХ ПЕРСОНАЖЕЙ ПОВЕСТИ «АДСКИЕ ПИСЬМА ВАМПИРА» АБДУРРАХИМ БЕКА ХАКВЕРДИЕВА

**Резюме**

Опубликованные Абдуррахим беком Хаквердиевым «Адские письма вампира» отличаются смелостью, проблематичностью, актуальностью и, наконец, художественным мастерством. Отсталость Азербайджана, последствия отношений между богатыми и бедными, обман ложных религиозных деятелей разоблачаются как дурные традиции целого народа. Персонажи прозы Хаквердиева создавались прежде всего на основе людей, которых он видел и знал в Карабахе. Писатель создал живые художественные характеры, в соответствии с затронутыми темами, используя в своих произведениях людей, которых видел и наблюдал в жизни.

**Ключевые слова:** *Хаквердиев, история, вампир, священнослужители-мошенники, жадность.*

***Mukhtarova Sevindj***

## CHARACTERISTICS OF THE MAIN IMAGE IN THE STORY OF ABDURRAKHIM BEY KHAGVERDIEV "LETTERS FROM HELL"

**Summary**

Abdurrahim bey Hagverdiyev's published "letters of hell" are distinguished by their courage, problems, topicality and, finally, artistic mastery. The backwardness in Azerbaijan, the consequences of rich-poor relations, the deceptions of false religious figures are exposed

as the bad traditions of an entire nation. Copies of Hagverdiyev's prose were created primarily on the basis of people he saw and knew in Karabakh. The writer used the people he saw and observed in his life to create living, artistic characters in accordance with the themes he wrote in his works.

**Key words:** *Haqverdiyev, story, vampire, fraudulent-clerics, greed.*

*Redaksiyaya daxil olma tarixi: 24.11.2020*
*Çapa qəbul olunma tarixi: 03.12.2020*

*Filologiya üzrə fəlsəfə doktoru Tünzalə Əlizadə qızı Seyfullayeva tərəfindən çapa tövsiyə olunmuşdur.*